© Ad.A.Əliyev, R.R.Rəhmanov, 2007

# AZƏRBAYCANIN PALÇIQ VULKANLARININ TOPONİMLƏRİ

**Ad.A.Əliyev[1], R.R.Rəhmanov[2]**

1 – *Azərbaycan MEA Geologiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prospekti, 29 A*
2 – *ARDNŞ-in "Elmi-Tədqiqatlar" İnstitutu*
*AZ1012, Bakı, H.Zərdabi prospekti, 88*

Məqalədə ilk dəfə Azərbaycanın bütün palçıq vulkanları ilə bilavasitə əlaqədar olan adlarla (axtarma, pilpilə) yanaşı, xarici görünüş, brekçiyanın rəngi, bitki örtüyünin seyrəkliyi, çoxlu miqdarda neftin, qazın və yararsız suyun çıxması, yaxınlıqda yerləşən kənd, qışlaq, ərazı adlarına və s. xüsusiyyətlərə görə onlara verilən toponimlərin mənşəyi izah edilir.

Azərbaycanın şərq hissəsində və ona bitişik Xəzər dənizi akvatoriyasında 340-dan çox palçıq vulkanı və təzahürləri yerləşir. Onlara verilən adlar çox böyük maraq doğurur. Nəşr və dərc olunmuş kitab və məqalələrdə (Azərb. toponimləri, 1999; Bəndəliyev, 1991; Budaqov, Mikayılov, 1973; Əhmədov, 1984; Jilo, Kosarev, 1964; Qeybullayev, 1986; Mehrəliyev, 1987; Məmmədov, 1999; Nuriyev, Abbasova, 1986; Səlimov-Şağani, 1993; Yüzbaşov, 1966) bu adların bir hisəsinin mənşəyi aydınlaşdırılsa da, tam halda indiyə qədər açıqlanmamışdır. Bu oronimlər (relyef quruluşu formalarının adları) vulkanların morfoloji, püskürmə, fəaliyyət və başqa xüsusiyyətlərinə görə meydana gəlmişdir. Vulkanlar bir çox hallarda eyni ad daşıyır, əksərinə isə müxtəlif adlar verilmişdir. Sırf palçıq vulkanları ilə əlaqədar yaranmış adlar xalq coğrafi terminlərinə çevrilmişdir. Belə adlar sırasına "Axtarma" və "Pilpilə" daxildir.

Müxtəlif hündürlükdə yüksəkliklər əmələ gətirən palçıq vulkanlarının adları, adətən, "axtarma" sözü əsasında yaranmışdır. Bu söz Bakı dialektində palçıq vulkanı, palçıqlı təpə deməkdir. Vulkan zirvəsinin tirmə kimi ağımtıl-boz palçıqla örtüldüyünü nəzərə alaraq, bu sözü "ağ tirmə" sözünün dəyişdirilmiş forması kimi izah edirlər. Belə ki, Ələt tirəsində bu əlamətə görə adlanan "Ağtirmə" vulkanı məlumdur. Lakin onu "axdırma" sözünə uyğun gəlməsi daha məntiqi görünür. Çünki vulkan boğazından püskürmə və eləcə də sakit fəaliyyəti vaxtı çıxan palçıq axaraq ətrafa yayılır.

"Axtarma" adlı vulkanları bir-birindən ayırmaq üçün onların adları yaxınlıqdakı yaşayış məntəqəsinin, qışlağın və ya yerin adı ilə birgə çəkilir (məsələn, Puta axtarması, Qaradağ axtarması, Paşalıaxtarma (başqa adı Qırlı arxac), Nardaranaxtarma, Süleymanaxtarma, Ütəlgi-axtarma, Ərəbaxtarma, Tataraxtarma, Alataxta axtarması). "Ayazaxtarma" vulkan adında isə "ayaz" sözü bitki örtüyünün kasadlığını bildirir. Zirvəsində çoxlu sayda lilli palçıqla dolmuş gölməçələr olan vulkan Çeyilaxtarma (çeyil –lilli, palçıqlı, səthi nahamar deməkdir) adlanır. Bəzən şəxs adları ilə birgə çəkilir (Qələndəraxtarma). Bu tip adlara sülb püskürmə məhsullarının tərkibilə seçilən Torpaqlıaxtarma da daxildir. Axtarmaardı vulkan adı onun Paşalıaxtarmasının arxa tərəfində yerləşməsini göstərir. Daşmərdan vulkanının başqa adı da Axtarmadır.

Kökündə "çeyil" sözü olan Çeyildağ vulkanı da məlumdur.

Adətən, palçıq vulkanı təzahürlərinə pilpilə (fars dilində qazın qabarcıq şəklində çıxan bataqlıq yeri bildirir) deyilir (Pilpilə dərəsi, Palçıq pilpiləsi, Zığ pilpiləsi, Qırmaki pilpiləsi, Buzovna pilpiləsi, Qaradağ pilpiləsi, Neftli pilpilə, Ələt pilpiləsi, Ütəlgi pilpiləsi, Neftçala pilpilələri). "Pilpilə" sözü onun təqlidi ilə əlaqədardır.

Vulkan brekçiyasının rənginin dəyişməsi nəticəsində boz rəngə çaldığına görə bir çox vulkanlar "Bozdağ" adlandırılır. Axtarmalarda olduğu kimi, eyni adlı vulkanları ayırmaq üçün yaxınlıqda yerləşən yaşayış yerinin adından istifadə olunur (Qobu Bozdağı, Güzdək Bozdağı, Hökmalı Bozdağı). Qobu Bozdağında 1902-ci ildə baş vermiş püskürmə zamanı 6 çoban və 2000-dən çox qoyun məhv olduğuna görə əhali onu "Qanlı təpə" də adlandırmışdır.

Ağımtıl rəngə çalan sülb püskürmə məhsullarına görə vulkanlara Ağdağ, Ağtəpə adları

da verilmişdir.

"Keyrəki"/"Körəki" vulkan adı yer təkindən qaldırılan və brekçiyanın əsas kütləsini əmələ gətirən gil süxurlarının yaşıl, göy rənglərini və dağı bildirən tat dilində "koorəku", "koor" və "ku" sözlərindən yaranmışdır. "Göytəpə" vulkan adı da eyni mənşəlidir.

Keyrəkinin başqa adı – Yanardağdır. Bu da püskürmə zamanı çıxan qazın alışmasına işarədir.

"Sarınça"/"Sarıca", "Qızıltəpə" vulkan adları yerləşdiyi dağın köklü süxurlarının rənginə görə verilmişdir.

Müsbət relyef formasını bildirmək üçün xalq arasında istifadə olunan bozı/bozu/boza/bazı sözü (düzən sahədə su qalxmayan hündür yer) bir sıra palçıq vulkan adlarını əmələ gətirir (Otmanbozıdağ – Otmanbozdağ, Çuxuroqlıbozı, Bozaaxtarma). Qeyd etmək lazımdır ki, Otmanbozdağ od püskürən boz dağ kimi izah olunmuşdur. "Otman" xalq coğrafi terminin "otlu", "otarılan yer" bildirdiyini nəzərə alsaq, onda bu adın mənasını "otlu, otarılan boz dağ" kimi də izah etmək olar.

Qarakürə (başqa adı Qaraçıraq), Çapılmış adları vulkan yüksəkliyinin xarıcı görünüşünə görə verilmişdir.

Ağzıbir vulkan adı (onun başqa adı Bozdağdır) tək bir boğazın olmasına işarədir.

Oroqrafik xüsusiyyətlərinə görə vulkanlara Üçtəpə adı da verilmişdir.

Bir-birinə yaxın məsafədə yerləşən, ölçülərinə görə fərqlənən eyni adlı vilkanları ayırmaq üçün "böyük" və ya "kiçik" sözlərindən istifadə olunur (Böyük və Kiçik Kənizədağ, Böyük və Kiçik Mişovdağ). Böyük və Kiçik Hərami vulkanları isə yerləşdiyi dağın adlarını daşıyır. Bəzən ölçüsü böyük olmayan vulkanın adının əvvəlinə "kiçik" sözü əlavə olunur (Kiçik Mərəzə, Kiçik pilpilə).

Üzərində seyrək bitki örtüyünü nəzərə alaraq vulkanlara Keçəldağ, Diləngəz, Qotur, Qoturdağ, Qoturluq adları verilmişdir. "Qotur" sözü, ola bilsin ki, vulkan üzərindəki gölməçələri dolduran lilli su və palçığın dəri xəstəliklərinin sağalmasına kömək etdiyinə görə işlədilmişdir.

Sarıboğa, Boğboğa/Buğbuğa, adları vulkanın çıxardığı səsin təqlidinə görə meydana gəlmişdir. Xərəzirə adı da belə yaranmışdır ("xərə" xorultu kimi tərcümə olunan fars sözü "xorə"nin dəyişdirilmiş şəkli, zirə isə ərəb sözü "cəzirə"nin qısaldılmış şəklidir - ada deməkdir).

Hamamdağ və Hamamdərə (Dağkolanı vulkanının başqa adı) adları yüksək temperatura işarədir.

Vulkan üzərində yerləşən mikroformaların xarıçı görünüşünə görə əmcək-əmcək, gil kütləsinə və onun tərkibində süxur qırıntıları çoxluq təşkil etdiyinə görə Küllüktəpə, Daşgil, Gil adası /Gilzirə adları yaranmışdır.

Vaxtilə Kürün yaxınlığında yerləşən yüksəklik Kürsəngi (farsca səng – daş, qaya deməkdir) adlandırılmışdır.

Kənizədağ zirvəsində atəşpərəstlərin məbədi – kilsəsi (ərəbcə kənisə) yerləşən ( onun xarabalıqları indi də izlənilir) dağ mənasını verir.

Pirəkəşkül – keçmişdə vulkan yüksəkliyində olan pir və dərvişlərin gəzdirdikləri hind qozundan hazırlanan nəzir qabı – kəşkül sözlərini özündə əks etdirir.

Günəşin istiliyinin təsirilə brekçiyanın tərkibindən ayrılan duzlar vulkan səthində duzu andıran ağımtıl nazik təbəqə əmələ gətirdiyinə görə vulkan Duzdağ adlandırılmışdır.

Vulkan boğazından çıxan palçığın məcazi mənada ayrana bənzədilməsi Ayrantökən adının yaranmasına səbəb olmuşdur.

Zahiri görünüşü ikihürgüclü dəvəyə və ya yüksəklik aşırımı dəvəboynuna oxşadığına görə vulkanlar Dəvəlidağ, Dəvəboynu adlandırılmışdır.

Komuratan - hündürdə yerləşən (komur), dar yarğanlı, uçurumlu yerdən vulkan fəaliyyətinin aktivləşməsi zamanı palçığın yuxarıya atılmasına işarədir.

Çoxlu miqdarda neftin çıxmasını və ya ətrafı qatılaşmış neftlə (qırla) örtülməsini bildirən adlara Ağzıqır, Qıraltı, Qırdaq, Qırlıq, Qırlıq gölü, Qırmaku, Neftik, Qırqışlaq, Neftli qobu (qobu - çökəklik, su axan dərə, çuxur yeri bildirir), Nöyüt təpəsi, Neft Daşları daxildir.

Yararsız suyun çıxmasını bildirən palçıq vulkanı adlarına Qarasu adası, Sədan (tat dilində siya-qara, dan-su sözündən əmələ gəlmişdir) aiddir.

Şorsulu, Şoran (Basqal vulkanının başqa adı) - vulkan üzərindəki gölməçələrin şor su ilə dolmasına, Zığ vulkan adı isə lil, lehmə, palçığın olmasına işarədir.

Göl, su toplanan, bataqlıq yeri bildirən nohur sözü ilə yaranan vulkan adları bunlardır: Ağnohur, Nohur, Qaranohur.

Üzərində və ya yaxınlıqdakı gölməçələrdə çoxlu sayda yuvalar salan quşlara, çöl

heyvanlarının çoxluğuna görə Mişovdağ ("mışovul" sözündən), Quşxana, Göyərçin, Toraǧay, Bayquşlu, Şonqar (şahin mənasında), Süngür (quş adı sunqurun təhrif olunmuş şəkli), Dovşandağ, İlanlı (Şıxzərli vulkanının başqa adı), Donuzluq zootoponimləri meydana gəlmişdir.

Vulkan adlarında palçığın əmələ gətirdiyi bataqlıqda heyvanların batmasına da işarə edilir - Atbatan, Lökbatan (lök – birhürgüclü erkək dəvə).

Oyuq adı üzərində kiçik kraterlərin əmələ gətirdiyi "dərmə-deşiklərin" yerləşməsinə görə yaranmışdır.

Fəaliyyətdən düşmüş, ağzi (gözü) tutulmuş vulkan Korgöz adlandırılmışdır.

Kürovdağ Kür ovalığında (ov/ova sözündən) eyni adlı dağda (ona Qırovdağ, yəni "qırovlu dağ" da deyilir) yerləşdiyini göstərir.

Vulkanların yerləşdiyi sahədə movqelərini nəzərə çatdırdıqda Ağzıxəzri, Qılınc (dağ tirəsi), Aralıq, Solaxay (gözdən uzaq yer), Axar-baxar (su axarı və çayabaxar tərəf), Yandərə adlarından istifadə edilmişdir.

Qaynarca adı zirvəsində yerləşən çoxlu sayda kiçik təpəcik və gölməçələrdən müxtəlif intensivlikdə qaynar qazanı xatırladan qazın çıxması ilə əlaqədardır.

Çalov adı vulkanın çalov şəklində çuxurluqda yerləşməsini göstərir.

Səngər adı vulkanın relyefinə (səngər - qədim türk dilində "qayalı çıxıntı" deməkdir), Durandağ, Durovdağ isə ətəklərinin dikliyinə görə verilmişdir.

Qrifon və salzlardan çıxan hidrogen-sulfidli suyun özünəməxsus iyinə görə vulkan təzahürü İyimiş adlandırılmışdır.

Yerləşdiyi kənd, ərazi, mədən, pir və qışlaq yerlərinin adlarından yaranan oykonimlərin (oykonim – yaşayış yerlərinin adları) sırasına Ağdərə, Köhnəgədi, Nüydü (tat dilində nyü-yeni, di – kənd), Çarxan (çahar, çar – dörd, xan – karvansaray), Arbat (araba, rabbat – dayanacaq və ya "qaraçı" mənasında ərəb sözündən), Qasımkənd, Quşçu, Çayqurbançı, Qurbançı, Məxləcik, Yeldərəsi, Çarani, Bizlan, Kürdəmiç, Birgüt, Qaradüzlü, Donuzluq, Şımşadı, Qarıca/Karca, Umbakı, Qədridərə, Damlamaca, Ceyranuçan, Dəmirçi, Ərəbqədim, Xilmilli (Xilə - İraqın Xilə mahalı və milli – Mil düzü, yəni Mildə yaşayan xilələlər) Kələxana ("kelə" ərəbcə məbəd, sərdabə), Sündü (sinədi sözünün təhrif olunmuş şəkli, sinə - yamac, di – tatca kənd, yəni yamacda kənd), Şaxqaya, Sarabil, Siyəki, Şixandağ, Şurabad, Cəyiril, Qızmeydan,, Daşmərdan (daş mədəninin təhrif olunmuş şəkli, vulkan yaxınlığında daş karxanasının – mədənin olmasını göstərir), Mədrəsə (dini məktəbin adından), Boransız cılğa (çılğa – quru, dayaz dərə), Şorbulaq, Kürkəçidağ (tat dilində kürkəcə, kürk – canavar, cə - yer, yəni canavar yaşayan yer), Cəngi (vuruş, döyüş), İncəbel, Sərsurə (tat dilində sər - baş, üst, surə - bulaq, mənbə, yəni bulaq üstü, bulaq başı), Tatarməhlə, Yeniqışlaq, Yaylaq-Tudar, Tudar (tat dilində tu/du – iki, dar, dahar – qaya, yəni iki qaya), Zəhərdağ (bitən otların zəhərli olduğunu bildirir), Zarat (ərəb dilində ziraət - əkin yeri və ya tayfa adı), Yaşma (mənası - qumsallıqda çeşmə olan "eşmə" sözünün təhrif olunmuş şəkli), Kəmçə (tat dilində qəmşə - düzən sahədə çay yatağı), Çilov adası, Pirallahı (Allahın piri) adası, Qayıblar, Pirqarı, Bibiheybət, Sarıdaş-Boyanata, Boyanata (orada müqəddəs Boyan Ata pirinin adı ilə), Xıdırzində ("Diri Xıdır" deməkdir), Mərəzə (orada yerləşən Pirmərəzə pirin adı), Ziyilpiri-Zigilpiri, Babazənan (əsl adı Baba Sənan, yüksəklikdə yerləşən pirin adı), Ağdam, Şəkixan (bu rayonların qışlaq yerləri), Kəmaləddin (bu şəxsə mənsub olan qışlaq) daxildir.

Etnonim (tayfa, elat, tirə, etnik qrup adları) və antroponimlər (şəxs adları) də vulkan toponimlərinin yaranmasında istifadə olunmuşdur. Məsələn, Dağkolanı, Ərzəni, Xıdırlı, Tuva, Cuan, Çıraqlı, Zarat, Çigil adası (tayfa adları), İlxıçı (atçılıqla məşğul olan şahsevənlərin tirəsi), Nabur (Zulqədar tayfasının eyni adlı tirəsi), Cəyirli (kəngərlilərin tirəsi), Məlikçobanı (eyni adlı elata mənsub), Osmanbəyli, Veys, Hacıvəliyeri, Şıxzərli/Şıxzayırlı/Şıxzahirli (Şeyx Zahir – şəxs adı), Gülbəxt, Qaraibad (şəxs adları).

Şeytanud – şəri təmsil edən şeytan və od (yerli dialektin təsirilə ud kimi tələffüz olunur) sözlərinin birləşməsindən yaranmışdır.

Püskürməsi Novruz gününün başlanması ilə (1967-ci il martın 20-si) üst-üstə düşdüyünə görə rəmzi olaraq vulkan Bahar adlandırılmışdır.

Bəndovan / Bəndəvan adı - bəndi ovan, dələn, deşən kimi yozulur. Vaxtilə vulkanın yerləşdiyi burundan dənizə doğru uzanan dil dalğalarla yuyularaq bir neçə adacıq və bankə əmələ gətirmişdi.

Palçıq vulkanlarının tədqiqində və onların yerləşdiyi sahələrin geologiyasının öyrənilməsində böyük xidmətinə görə vulkanlar Abix, Arxangelski,

Şatski, Darvin bankəsi, Ə.Yaqubov, Ə.Əlizadə, Ş.Mehdiyev, A.Putkaradze, M.Zeynalov və başqa tədqiqatçıların şərəfinə adlandırılmışdır.

Abşeron və Bakı arxipelaqlarında palçıq vulkanı fəaliyyəti ilə yaranan dayaz yerlər bankə (bank – holland sözü olub, sualtı dayaz yer deməkdir) / say (Abşeron, Aran-dəniz, Atəşgah, Balıqlı, Çigil-dəniz, İnam, Kür, Muğan-dəniz, Şirvan-dəniz, Səbayıl, Ülfət), su səthində görünən yastı sal daş - tava adlanır. Yanan Tava - sal, yastı daşın - tavanın yerləşdiyi və alov görünən yeri bildirir.

Bəzi bankələrin adları püskürmə illərindən yaramnışdır ("1906" b., "1908" b., "1933" b., "1960" b.).

Muğan düzü və Kür çayı mənsəbinin tuşunda yerləşən vulkan mənşəli adalar müvafiq olaraq Səngi Muğan (səng – daş deməkdir) və Kür daşı adlanır.

Daşlı ada adı – adanın relyefi ilə əlaqədardır.

Kraterində qazhidrat (xarıcı görünüşü buza oxşar qaz və suyun bərk molekulyar məhlul birləşməsi) aşkar olunduğuna görə Xəzərin dərin hisəsində yerləşən vulkana Buzdağ adı verilmişdir.

Xəzərdə çoxlu sayda sualtı palçıq vulkanları yerləşdiyi qalxımların adlarını daşıyır (məsələn, Günəşli, Kəpəz, Naxçıvan, Babək, Şahdağ, Zəfər və s.).

Qalmas və Qızdağ adlarının mənaları bilinsə də, onların izahı hələ də çətinlik törədir.

Göründüyü kimi, Azərbaycanın palçıq vulkanlarının adları əksər hallarda onların səciyyəvi xüsusiyyətlərini əks etdirən xalq çoğrafi terminlərinə, əmələ gətirdikləri yüksəkliklərin relyefinə, bitki örtüyünün seyrəkliyinə, təşkil edən süxurların rənginə, üzərində rast gəlinən təpəciklərin xarici görünüşünə, quş yuvalarının və çöl heyvanlarının çoxluğuna, neft çıxışlarının olmasına əsasən yaranmışdır. Eyni adlı vulkanları bir-birindən ayırmaq üçün toponimə yaxınlıqda yerləşən yaşayış və ya yer adları əlavə edilmiş, çox vaxt isə sadələşdirilərək elə o yerlərin oykonim, oronim, antroponim və etnonimlərindən istifadə edilmişdur.

## ƏDƏBİYYAT


Azərbaycan toponimləri. Ensiklopedik lüğət. 1999. Azərb. Nəşr.-Poliqr. Birliyi. Bakı.584.

BƏNDƏLIYEV, N.S. 1991. Dağlıq Şirvanda landşaftların toponimik üsulla öyrənilməsi. Namiz. dis. Avtoreferatı. Bakı. 19.

ƏHMƏDOV, T. 1984. El-obamızın adları. Gənclik. Bakı.126.

ГЕЙБУЛЛАЕВ, Г.А. 1986. Топонимия Азербайджана. Элм. Баку. 191.

MEHRƏLIYEV, E.Q. 1987. Xalq coğrafi terminlərinin izahlı lüğəti. Maarif. Bakı. 80 .

MƏMMƏDOV, N. 1999. Azərbaycan Respublikasının oronimləri. BDU nəşr. Bakı. 297.

NURIYEV, E.B., ABBASOVA, M.Ə. 1986. Xəzər dənizinin Azərbaycan akvatoriyasının toponimlərinə dair. *Azərb. EA xəbərləri, Yer elm. ser.*, 6, 48-54.

SƏLIMOV-ŞAĞANI, T.Q. 1993. Abşeronun yer adları. Elm. Bakı. 74.

YÜZBAŞOV, R. 1966. Azərbaycan coğrafiya terminləri (tədqiqlər). Azərb. EA nəşr. Bakı.158 .

БУДАГОВ, Б.А., МИКАИЛОВ, А.А. 1973. О некоторых географических названиях грязевых вулканов Азербайджана. *Изв. АН Азерб,, сер. наук о Земле, 3,* 70-75.

ЖИЛО, П.В., КОСАРЕВ, А.Н. 1964. Топонимика некоторых географических названий побережья Каспийского моря. *Вестник Моск. гос. ун-та, сер. географ.,* 4, 119-123.


***Məqaləyə c.e.n. İ.Mərdanov və b.e.i. M.Abbasova rəy vermişdir***